**Ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə 12 iyul 2026-ci il tarixində *dt* və *tc* altqruplarını seçən abituriyentlər üçün 3-cü ixtisas qrupu üzrə keçirilən qəbul imtahanında coğrafiya fənnindən istifadə olunan test tapşırıqlarının izahı**

# Coğrafiya

**A variantı 1 saylı test tapşırığı**
**B variantı 18 saylı test tapşırığı**
**C variantı 2 saylı test tapşırığı**
**D variantı 13 saylı test tapşırığı**

Uyğunluğu müəyyən edin.

| *Dağ zirvələri* | *Yerləşdiyi dağ silsiləsi* |
|---|---|
| 1. Qapıcıq<br>2. Kəpəz<br>3. Böyük Kirs | a. Dərələyəz<br>b. Qarabağ vulkanik yaylası<br>c. Zəngəzur<br>d. Qarabağ<br>e. Murovdağ |

A) 1 – c; 2 – e; 3 – d
B) 1 – c; 2 – e; 3 – b
C) 1 – b; 2 – e; 3 – a
D) 1 – a; 2 – d; 3 – b
E) 1 – a; 2 – c; 3 – b

***Mövzu:*** Azərbaycanın relyefi
***Sinif:*** 10
***İzah:*** Verilən zirvələr Kiçik Qafqaz dağlarına aid olan silsilələrdə yerləşir. Qapıcıq zirvəsi Zəngəzur silsiləsində, Kəpəz zirvəsi Murovdağ silsiləsində, Böyük Kirs zirvəsi isə Qarabağ silsiləsindədir.
***Doğru cavab:*** 1 – c; 2 – e; 3 – d

**A variantı 2 saylı test tapşırığı**
**B variantı 12 saylı test tapşırığı**
**C variantı 9 saylı test tapşırığı**
**D variantı 18 saylı test tapşırığı**

**A** iqtisadi rayonunun xarici ölkəyə və Xəzər dənizinə çıxışı olmadığı üçün coğrafi mövqeyi əlverişsiz hesab olunur. Ərazinin relyefi, əsasən, dağlıqdır və fəal seysmik zonada yerləşir.

**A** iqtisadi rayonuna aid olan xüsusiyyətləri müəyyən edin.

1. Əsas ehtiyatları yanar şist, tikinti materialları, mineral sular və meşələrdir.
2. Yerli xammal ehtiyatları kimya və qara metallurgiya sənayesinin inkişafına təkan verir.
3. Xalçaçılıq və ipəkçilik kimi qədim sənətkarlıq sahələri mövcuddur.
4. Tərkibinə 5 inzibati rayon daxildir.
5. Üzümçülük və şərab istehsalı mövcuddur.
6. Ölkənin ən yüksək yaşayış məntəqəsi burada yerləşir.

A) 2, 3, 6
B) 1, 3, 5
C) 3, 4, 5
D) 1, 4, 6
E) 1, 2, 5

***Mövzu:*** *Azərbaycan Respublikasının iqtisadi rayonları*
***Sinif:*** 11
***İzah:*** Mətndə verilən iqtisadi rayon Dağlıq Şirvandır. Onun tərkibinə 4 inzibati rayon daxildir. Əsas ehtiyatları yanar şist, tikinti materialları, mineral sular və meşələrdir. Burada xalçaçılıq və ipəkçilik kimi qədim sənətkarlıq sahələri, eyni zamanda üzümçülük və şərab istehsalı mövcuddur. Ölkənin ən yüksək yaşayış məntəqələri Quba-Xaçmaz və Şərqi Zəngəzur iqtisadi rayonunda yerləşir.
***Doğru cavab:*** 1, 3, 5

**A variantı 3 saylı test tapşırığı**
**B variantı 15 saylı test tapşırığı**
**C variantı 16 saylı test tapşırığı**
**D variantı 2 saylı test tapşırığı**

Qarabağ vulkanik yaylası və Qarabağ silsiləsini Nialdağ silsiləsindən fərqləndirən xüsusiyyət:

A) Alt Paleozoy çöküntülərinə rast gəlinir
B) Respublikamızın sərhədində yerləşir.
C) Denudasiya prosesi üstünlük təşkil edir.
D) Kiçik Qafqaz tektonik qalxma zonasında yerləşir.
E) Ərazisindən axan çaylar Kür çayı hövzəsinə aiddir.

***Mövzu:*** Azərbaycanın geoloji qurluşu
***Sinif:*** 9, 10
***İzah:*** Verilən silsilələrdə Alt Paleozoy çöküntülərinə rast gəlinmir. Respublikamızın sərhədində yalnız Qarabağ vulkanik yaylası yerləşir. Kiçik Qafqaz tektonik qalxma zonasında Qarabağ vulkanik yaylası və Qarabağ silsiləsi yerləşir. Nialdağ Böyük Qafqaz tektonik qalxma zonasındadır. Verilən ərazilər dağlıq olduğu üçün denudasiya prosesləri üstünlük təşkil edir.
Hər üç ərazidən axan çaylar Kür çayı hövzəsinə aiddir.
***Doğru cavab:*** Kiçik Qafqaz tektonik qalxma zonasında yerləşir.

**A variantı 4 saylı test tapşırığı**
**B variantı 16 saylı test tapşırığı**
**C variantı 4 saylı test tapşırığı**
**D variantı 8 saylı test tapşırığı**

Diaqramın aid olduğu iqlim qurşağının xüsusiyyətləri:




1. Bütün yarımkürələrdə rast gəlinir.
2. Şəkər çuğundurunun əsas becərilmə arealları yerləşir.
3. Fəal temperaturların illik miqdarı yüksəkdir.
4. Yağıntıların illik miqdarı 1000 mm-dən azdır.
5. Yayıldığı bütün ərazilərdə Günəş ildə iki dəfə zenitdə olur.
6. Şimali Amerika materikində rast gəlinir.

A) 2, 5, 6
B) 1, 2, 3
C) 3, 4, 6
D) 1, 2, 4
E) 1, 3, 5

***Mövzu:*** İqlim və onun təsərrüfat əhəmiyyəti
***Sinif:*** 10

*İzah:* Diaqram ekvatorial iqlim qurşağına aiddir. Şəkər çuğundurunun əsas becərilmə arealları mülayim kontinental və qisməndə subtropik iqlim qurşağında yerləşir. Yağıntılarının illik miqdarı 1000 mm-dən daha çoxdur. Şimali Amerika materikində ekvatorial iqlim qurşağı yoxdur. Verilən iqlim diaqramının aid olduğu ekvatorial iqlim qurşağı dörd yarımkürədə yerləşir, fəal temperaturların cəmi 8000°C-dən çoxdur və tropik işıqlanma qurşağında yayıldığı üçün Günəş ildə iki dəfə zenitdə olur.
***Doğru cavab:*** 1, 3, 5

**A variantı 5 saylı test tapşırığı**
**B variantı 2 saylı test tapşırığı**
**C variantı 21 saylı test tapşırığı**
**D variantı 12 saylı test tapşırığı**

Demoqrafik siyasəti təbii artımın yüksəldilməsi istiqamətində aparan ölkələr:

1. Fransa 2. Rusiya 3. İndoneziya
4. Banqladeş 5. Danimarka 6. Hindistan

A) 1, 4, 6 B) 1, 2, 5 C) 2, 3, 4
D) 4, 5, 6 E) 1, 2, 3

***Mövzu:*** Dünya əhalisi
***Sinif:*** 8, 9
***İzah:*** Demoqrafik siyasəti təbii artımın artırılması istiqamətində aparan ölkələrə Fransa, Rusiya, Danimarka daxildir. İndoneziya, Banqladeş və Hindistanda təbii artım yüksək olduğu üçün bu istiqamətdə siyasət aparılmır.
***Doğru cavab:*** 1, 2, 5

**A variantı 6 saylı test tapşırığı**
**B variantı 13 saylı test tapşırığı**
**C variantı 10 saylı test tapşırığı**
**D variantı 9 saylı test tapşırığı**

Aral gölünün sahilində yerləşən ölkələrin ümumi xüsusiyyətlərini müəyyən edin.

1. Əhalisinin əsas hissəsi türk dil qrupunun uyğur qoluna aiddir
2. Ərazilərinin bir hissəsi cavan platformada yerləşir
3. Tərkibində türk dövlət qurumu mövcuddur
4. Ərazisindən qar və buzlaqlarla qidalanan çaylar axır
5. Əfqanıstanla həmsərhəddir
6. Mülayim işıqlanma qurşağında yerləşir

A) 1, 2, 3 B) 2, 4, 6 C) 2, 5, 6
D) 3, 4, 5 E) 1, 3, 5

***Mövzu:*** Türk dünyasının coğrafi səciyyəsi
***Sinif:*** 11
***İzah:*** Aral gölü Özbəkistan və Qazaxıstan ölkələrinin sərhədində yerləşir. Özbəkistanın əhalisinin əsas hissəsi türk dil qrupunun uyğur, Qazaxıstan əhalisinin əsas hissəsi isə qıpçaq qoluna aiddir. Özbəkistanda Qaraqalpaqıstan türk dövlət qurumu yerləşir. Əfqanıstanla yalnız Özbəkistan həmsərhəddir.
Hər iki ölkə üçün ümumi olan əlamətlərə aşağıdakılar aiddir: ərazilərinin bir hissəsi cavan platforma olan Turan ovalığında yerləşir, ərazisindən qar və buzlaqlarla qidalanan çaylar axır. Mülayim işıqlanma qurşağında yerləşirlər.
***Doğru cavab:*** 2, 4, 6

**A variantı 7 saylı test tapşırığı**
**B variantı 5 saylı test tapşırığı**
**C variantı 11 saylı test tapşırığı**
**D variantı 17 saylı test tapşırığı**

Eyler-Venn diaqramına əsasən uyğunluğu müəyyən edin.




1. antropogen təsir böyükdür
2. həm Hind-Avropa, həm də Afro-Asiya dil ailələrinə aid olan əhalinin məskunlaşdığı ərazilərdə yayılmışdır
3. Avropa qitəsində rast gəlinir
4. bir neçə iqlim qurşağında yayılmışdır
5. yağıntıların əsas hissəsi ilin isti dövründə düşür
6. yayıldığı ərazilərdə fəaliyyətdə olan vulkanlar mövcuddur

A) I – 5, 6; II – 3, 4; III – 1, 2
B) I – 4, 5; II – 2, 3; III – 1, 6
C) I – 2, 4; II – 3, 6; III – 1, 5
D) I – 4, 5; II – 1, 3; III – 2, 6
E) I – 1, 3; II – 2, 4; III – 5, 6

***Mövzu:*** *Təbii zonalar və onlardan istifadə*
***Sinif:*** 8, 9
***İzah:*** Musson meşələrinə subtropik və mülayim iqlim qurşağında rast gəlinir. Burada yağıntılar musson küləklərinin təsiri ilə ilin isti dövründə düşür.
Codyarpaqlı meşə və kolluqlara Avropa qitəsinin cənubunda rast gəlinir. Aralıq dənizi sahillərində bu təbii zonanın yayıldığı ərazilərdə Hind-Avropa və Afro-Asiya dil ailələrinə mənsub olan xalqlar məskunlaşmışdır.
Hər iki təbii zonada antropogen təsir böyükdür və yayıldığı ərazilərdə fəaliyyətdə olan vulkanlar mövcuddur
***Doğru cavab:*** I – 4, 5; II – 2, 3; III – 1, 6

**A variantı 8 saylı test tapşırığı**
**B variantı 6 saylı test tapşırığı**
**C variantı 15 saylı test tapşırığı**
**D variantı 19 saylı test tapşırığı**

Uyğunluğu müəyyən edin.

| *Yarımadalar* | *Səciyyəvi xüsusiyyətləri* |
|---|---|
| 1. Labrador<br>2. Keyp-York<br>3. Balkan | a. dünyada ən böyük boksit hasilatı rayonu yerləşir<br>b. soyuq okean cərəyanı iqliminin formalaşmasına təsir edir<br>c. qəhvəyi torpaqlar yayılmışdır<br>d. ərazisində bir neçə ölkə yerləşir<br>e. ekvatorial və tropik hava kütlələrinin təsirinə məruz qalır |

A) 1 – b, e; 2 – a, c; 3 – d B) 1 – b, d; 2 – a; 3 – c, e
C) 1 – a; 2 – c, e; 3 – b, d D) 1 – c; 2 – a, b; 3 – d, e
E) 1 – b; 2 – a, e; 3 – c, d

***Mövzu:*** *Materiklərin coğrafiyası*
***Sinif:*** 9
***İzah:*** Labrador yarımadasının sahillərindən eyni adlı soyuq okean cərəyanı keçir.
Avstraliyanın Keyp-York yarımadası dünyanın ən böyük boksit hasilatı rayonuna daxildir. Subekvatorial iqlim

qurşağında yerləşdiyi üçün ekvatorial və tropik hava kütlələrinin təsirinə məruz qalır.

Balkan yarımadasında codyarpaqlı meşə və kolluqların altında qəhvəyi torpaqlar yayılmışdır və ərazisində bir neçə ölkə yerləşir.

***Doğru cavab:*** 1 – b; 2 – a, e; 3 – c, d

**A variantı 9 saylı test tapşırığı**
**B variantı 7 saylı test tapşırığı**
**C variantı 12 saylı test tapşırığı**
**D variantı 7 saylı test tapşırığı**

Cədvələ əsasən doğru sıraları müəyyən edin.

| № | Tektonik zona | Qoruq və ya milli park |
|---|---|---|
| 1. | Kür çökməsi | Qaragöl |
| 2. | Ön Qafqaz çökməsi | Samur-Yalama |
| 3. | Kiçik Qafqaz qalxması | Qarayazı |
| 4. | Orta Araz əyilməsi | Hirkan |
| 5. | Böyük Qafqaz qalxması | Şahdağ |

A) 3, 5   B) 1, 3   C) 2, 5   D) 2, 4   E) 1, 4

***Mövzu****: Azərbaycanın qoruq və milli parkları*
***Sinif:*** 9, 10
***İzah:*** Qaragöl Kiçik Qafqaz qalxmasında, Qarayazı Kür çökməsində, Hirkan Kiçik Qafqaz qalxmasında, Samur-Yalama Ön Qafqaz çökməsində, Şahdağ milli parkı isə Böyük Qafqaz qalxmasında yerləşir.
***Doğru cavab:*** 2, 5

**A variantı 10 saylı test tapşırığı**
**B variantı 10 saylı test tapşırığı**
**C variantı 13 saylı test tapşırığı**
**D variantı 4 saylı test tapşırığı**

Uyğunluğu müəyyən edin.

| *Suvarmada istifadə edilmə dövrü* | *Çaylar* |
|---|---|
| 1. Yay<br>2. Qış | a. Kür<br>b. Xuanxe<br>c. Hind<br>d. Amudərya<br>e. Yantszı |

A) 1 – a, e; 2 – b, c, d
B) 1 – b, c; 2 – a, d, e
C) 1 – b, c, e; 2 – a, d
D) 1 – a, b, c; 2 – d, e
E) 1 – a, d; 2 – b, c, e

***Mövzu****: Dünyanın kənd təsərrüfatı*
***Sinif:*** 9
***İzah:*** Çayların suvarmada istifadə edilmə dövrü axdığı ərazinin iqlim şəraitindən asılıdır. Subtropik iqlim qurşağının aralıq dəniz və kontinental tipində yay fəsli isti quru olduğu üçün Kür və Amudərya çaylarının suvarmada istifadə edilmə dövrü yay, musson iqlim tipi və subekvatorial iqlim qurşağında qış ayları quraq olduğu üçün Xuanxe, Hind və Yansızı çaylarının suvarma dövrü qış aylarındadır.
***Doğru cavab:*** 1 – a, d; 2 – b, c, e

**A variantı 11 saylı test tapşırığı**
**B variantı 11 saylı test tapşırığı**
**C variantı 22 saylı test tapşırığı**
**D variantı 21 saylı test tapşırığı**

Uyğunluğu müəyyən edin.

| *Ölkələr* | *Regionlar* |
|---|---|
| 1. İsveçrə<br>2. Liviya<br>3. İndoneziya | a. Cənubi Asiya<br>b. Orta Avropa<br>c. Cənubi Avropa<br>d. Şimali Afrika<br>e. Cənub-Şərqi Asiya |

A) 1 – b; 2 – d; 3 – a
B) 1 – a; 2 – c; 3 – e
C) 1 – b; 2 – d; 3 – e
D) 1 – c; 2 – b; 3 – a
E) 1 – a; 2 – e; 3 – d

***Mövzu****:* Dünyanın siyasi xəritəsi və onun formalaşması
***Sinif:*** 9
***İzah:*** İsveçrə- Orta Avropa; Liviya- Şimali Afrika; İndoneziya- Cənub-Şərqi Asiya
***Doğru cavab:*** 1 – b; 2 – d; 3 – e

**A variantı 12 saylı test tapşırığı**
**B variantı 1 saylı test tapşırığı**
**C variantı 8 saylı test tapşırığı**
**D variantı 14 saylı test tapşırığı**

Sxemdə hansı küləklər təsvir olunub?




A) cənub-şərq küləkləri
B) mussonlar
C) passatlar
D) qərb küləkləri
E) brizlər

***Mövzu****:* Atmosfer. Yerin hava təbəqəsi
***Sinif:*** 6
***İzah:*** Cənub-şərq, passat və qərb küləkləri il boyu eyni istiqamətdə əsən daimi küləklərdir. Musson küləkləri istiqamətlərini il ərzində dəyişirlər. Briz küləkləri istiqamətini sutka (gecə və gündüz) ərzində quru və dəniz arasında dəyişir.
***Doğru cavab:*** Briz

**A variantı 13 saylı test tapşırığı**
**B variantı 14 saylı test tapşırığı**
**C variantı 7 saylı test tapşırığı**
**D variantı 1 saylı test tapşırığı**

Venesuela və Nigeriya ölkələrini birləşdirən ümumi cəhət:

A) Zəngin neft ehtiyatları mövcuddur
B) Materik daxili ölkələrdir
C) İnkişaf etmiş ölkələrdir
D) Şimal və Şərq yarımkürəsində yerləşirlər
E) Subtropik iqlim qurşağında yerləşirlər

***Mövzu****:* Təbii ehtiyatlar və onlardan istifadə
***Sinif:*** 10
***İzah:*** Venesuela və Nigeriya ölkələri neft ehtiyatları ilə zəngindir. Hər iki ölkə Atlantik okeanı sahilində yerləşir. İnkişaf etməkdə olan ölkələr qrupuna daxildirlər. Nigeriya şimal və şərq yarımkürəsində, Venesuela isə şimal və qərb yarımkürəsində yerləşir. Bu ölkələr subtropik iqlim qurşağında yerləşmir.
***Doğru cavab:*** Zəngin neft ehtiyatları mövcuddur

**A variantı 14 saylı test tapşırığı**
**B variantı 20 saylı test tapşırığı**
**C variantı 6 saylı test tapşırığı**
**D variantı 11 saylı test tapşırığı**

Verilən əlamətlərə uyğun gələn iqlim yarımtipini müəyyən edin:

– Qanıx-Əyriçay və Kiçik Qafqazın alçaq dağlığını əhatə edir.
– Yağıntılar, əsasən, ilin isti dövründə düşür.
– Kənd təsərrüfatı üçün əlverişlidir.

A) Qışı soyuq keçən yarımsəhra və quru çöl iqlim
B) Yayı quraq keçən soyuq iqlim
C) Qışı quraq keçən mülayim-isti iqlim
D) Yayı quraq keçən mülayim-isti iqlim
E) Qışı quraq keçən soyuq iqlim

***Mövzu:*** Azərbaycanın iqlimi
***Sinif:*** 10
***İzah:*** Qışı soyuq keçən yarımsəhra və quru çöl iqlim tipi Naxçıvanın Arazboyu düzənlikləri üçün xarakterikdir. Yayı quraq keçən soyuq iqlim tipi Naxçıvanın dağlıq ərazilərində yayılmışdır. Yayı quraq keçən mülayim-isti iqlim tipində yağıntılar əsasən ilin soyuq dövründə düşür. Qışı quraq keçən soyuq iqlim tipi isə Böyük və Kiçik Qafqazın orta və yüksək dağlıq ərazilərini əhatə edir. Qışı quraq keçən mülayim-isti iqlim tipinə Qanıx-Əyriçay və Kiçik Qafqazın alçaq dağlıq ərazilərində rast gəlinir. Burada yağıntılar, əsasən, ilin isti dövründə düşür və kənd təsərrüfatı üçün əlverişlidir.
***Doğru cavab:*** Qışı quraq keçən mülayim-isti iqlim

**A variantı 15 saylı test tapşırığı**
**B variantı 21 saylı test tapşırığı**
**C variantı 3 saylı test tapşırığı**
**D variantı 16 saylı test tapşırığı**

Xəritə-sxemdə rəqəmlərlə qeyd olunmuş ölkələrə aid olan xüsusiyyətləri müəyyən edin.




a. Zəngin daş kömür ehtiyatlarına malikdir.
b. Qarda gölünün turizm əhəmiyyəti yüksəkdir.
c. Ərazisində İnari və Sayma gölləri yerləşir.
d. Ərazisi tamamilə mülayim iqlim qurşağında yerləşir.
e. Üzüm yığımına görə fərqlənir.

A) 1 – b, c; 2 – a, e; 3 – d  B) 1 – b; 2 – d, e; 3 – a, c
C) 1 – a, d; 2 – b, e; 3 – c  D) 1 – a, c; 2 – d; 3 – b, e
E) 1 – e; 2 – c, d; 3 – a, b

***Mövzu:*** *Dünya ölkələrinin inkişaf xüsusiyyətləri*
***Sinif:*** 9
***İzah:*** 1-Polşa zəngin daş kömür ehtiyatlarına malikdir və ərazisi tamamilə mülayim iqlim qurşağında yerləşir.
2-İtaliyada yerləşən Qarda gölünün turizm əhəmiyyəti yüksəkdir və üzüm yığımına görə fərqlənir.
3- Finlandiyada İnari və Sayma gölləri yerləşir.
***Doğru cavab:*** 1 – a, d; 2 – b, e; 3 – c

**A variantı 16 saylı test tapşırığı**
**B variantı 3 saylı test tapşırığı**
**C variantı 20 saylı test tapşırığı**
**D variantı 5 saylı test tapşırığı**

Sxemdə 21 mart tarixində 160° ş.u.-da yerləşən L məntəqəsində günortadır. Buna əsasən doğru ***olmayan*** fikri müəyyən edin.




A) M və K məntəqələri arasında 105° coğrafi uzunluq fərqi var.
B) K məntəqəsi XV saat qurşağında yerləşir.
C) 20° q.u ilə L məntəqəsi arasında yerli vaxt fərqi 12 saatdır.
D) M məntəqəsində 20 martdır.
E) M məntəqəsi qərb yarımkürəsində yerləşir.

***Mövzu:*** Yer günəş sistemində
***Sinif:*** 9
***İzah:*** M və K məntəqələri arasında 15:00-08:00 = 7 saat zaman fərqi olduğuna görə coğrafi uzunluq fərqi 7x15°=105°-yə uyğun gəlir. K və L məntəqəsi arasındakı coğrafi uzunluq fərqini hesablamaq üçün 12:00-08:00=4x15°=60°. K məntəqəsi L məntəqəsindən qərbdə olduğu üçün 160°-60°=100° ş.u-nun saat qurşağını 100°:15°=6 (qalıq 10°>7,5°), 6+1=7 (VII saat qurşağı) olur. 20° q.u. ilə L məntəqəsi (160° ş.u) arasında 160°+20°=180°:15°=12 saatdır. M məntəqəsinin coğrafi uzunluğunu hesablasaq 15:00-12:00=3x15°=45° coğrafi uzunluq fərqi var. L məntəqəsindən M məntəqəsinə doğru coğrafi uzunluq artır. Nəticədə 160°+45°=205°>180° olduğuna görə 360°-205°=155° q.u-na uyğun gəlir. M məntəqəsi qərb yarımkürəsində yerləşdiyi üçün burada 20 martdır.
***Doğru cavab:*** K məntəqəsi XV saat qurşağında yerləşir.

**A variantı 17 saylı test tapşırığı**
**B variantı 8 saylı test tapşırığı**
**C variantı 1 saylı test tapşırığı**
**D variantı 15 saylı test tapşırığı**

Xəritə-sxemdə müvafiq olaraq Rio-Qrande, Makkenzi, Yukon və Missisipi çayları hansı rəqəmlərlə göstərilmişdir?




A) 4, 2, 1, 3　　B) 5, 4, 6, 3　　C) 1, 5, 6, 2
D) 5, 3, 4, 6　　E) 4, 2, 3, 1

***Mövzu:*** Quru suları və onlardan istifadə
***Sinif:*** 9
***İzah:*** Şimali Amerikanın xəritə-sxeminə əsasən rəqəmlərlə verilən çayların ardıcıllığı aşağıdakı kimidir:
1-Yukon; 2-Makkenzi; 3-Missisipi; 4-Rio-Qrande; 5-Kolorado; 6-Müqəddəs Lavrenti
***Doğru cavab:*** 4, 2, 1, 3

**A variantı 18 saylı test tapşırığı**
**B variantı 22 saylı test tapşırığı**
**C variantı 5 saylı test tapşırığı**
**D variantı 22 saylı test tapşırığı**

Xəritə-sxemə əsasən təbii qaza olan tələbatını idxal xammalı hesabına ödəyən ölkələri müəyyən edin.




A) 2, 4, 5　　B) 1, 5, 6　　C) 2, 3, 4
D) 1, 3, 6　　E) 3, 4, 5

***Mövzu:*** *Dünya iqtisadiyyatının ümumcoğrafi səciyyəsi*
***Sinif:*** 10
***İzah:*** Təbii qazı ixrac edən ölkələrə 4.Kanada, 2.Meksika, 5.Avstraliya aiddir.
Təbii qazı idxal edən ölkələrə 1.İspaniya, 3.Almaniya, 6.Yaponiya aiddir.
***Doğru cavab:*** 1, 3, 6

**A variantı 19 saylı test tapşırığı**
**B variantı 9 saylı test tapşırığı**
**C variantı 17 saylı test tapşırığı**
**D variantı 6 saylı test tapşırığı**

Verilən əlamətlərin aid olduğu ada və ya arxipelaq:
– Neotektonik proseslərin təsiri ilə yaranan relyef formalarına rast gəlinir.
– Atlantik okeanda yerləşir.
– Litosfer tavalarının divergent sərhədlərində yerləşir.

A) Havay　　B) Folklend　　C) İrlandiya
D) Azor　　E) Siciliya

***Mövzu:*** Yer səthinin relyefi v ə ondan istifadə yolları
***Sinif:*** 8
***İzah:*** Havay adaları Sakit okeanda yerləşir. Folklend və İrlandiya adaları Atlantik okeanda yerləşsələr də litosfer tavalarının sərhədindən kənarda qalırlar. Siciliya adası Atlantik okeanında litosfer tavalarının toqquşma sərhəddinə uyğun gəlir. Azor adaları isə Atlantik okeanında litosfer tavalarının divergent sərhədlərində yerləşir və neotektonik proseslərin təsiri ilə yaranan relyef formalarına rast gəlinir.
***Doğru cavab:*** Azor

**A variantı 20 saylı test tapşırığı**
**B variantı 17 saylı test tapşırığı**
**C variantı 18 saylı test tapşırığı**
**D variantı 20 saylı test tapşırığı**

Dünyada içməli suyun adambaşına düşən təminatının zəif (I), yaxşı (II) olan ölkələri müəyyən edin.
1. Kanada
2. Türkmənistan
3. Norveç
4. Yeni Zelandiya
5. Yəmən
6. Misir

A) I – 2, 5, 6; II – 1, 3, 4　　B) I – 4, 5, 6; II – 1, 2, 3
C) I – 1, 3, 4; II – 2, 5, 6　　D) I – 3, 4, 5; II – 1, 2, 6
E) I – 2, 3, 6; II – 1, 4, 5

***Mövzu:*** *Dünyanın içməli su problemi*
***Sinif:*** 11
***İzah:*** Dünyada içməli suyun adambaşına düşən təminatı ölkənin daxili sularından və əhalinin sayından asılı olaraq dəyişir.
Yaxşı təmin olunmuş ölkələrə Kanada, Norveç və Yeni Zelandiya, zəif təmin olunmuş ölkələrə isə Türkmənistan, Yəmən və Misir aiddir.
***Doğru cavab:*** I – 2, 5, 6; II – 1, 3, 4

**A variantı 21 saylı test tapşırığı**
**B variantı 4 saylı test tapşırığı**
**C variantı 19 saylı test tapşırığı**
**D variantı 3 saylı test tapşırığı**

Küdrü Şirvan, Qazax-Qarabağ və Kür-Araz (Mərkəzi Aran) fiziki-coğrafi rayonlarında payızlıq taxıl əkinlərinin geniş yayılmasının səbəbi:

A) Qara torpaqların yayılması
B) Denudasiya prosesinin üstün olması
C) Qışın şaxtalı keçməsi
D) Qışın yumşaq və mülayim keçməsi
E) Yayın rütubətli keçməsi

***Mövzu:*** *Azərbaycanın kənd təsərrüfatı*
***Sinif:*** 10
***İzah:*** Qara torpaqlara Şamaxı və Gəncə fiziki-coğrafi rayonlarında rast gəlinir. Denudasiya prosesləri dağlıq əraziləri üçün səciyyəvidir. Qışın şaxtalı keçdiyi ərazilərdə yazlıq buğda becərilir. Küdrü Şirvan, Qazax-Qarabağ və Kür-Araz (Mərkəzi Aran) fiziki-coğrafi rayonlarında payızlıq taxıl əkinlərinin geniş yayılmasının səbəbi qışın yumşaq və mülayim keçməsidir. Payızlıq taxıl əkinlərinin becərildiyi ərazilərdə yay fəsli quraq keçir.

*Doğru cavab:* Qışın yumşaq və mülayim keçməsi

**A variantı 22 saylı test tapşırığı**
**B variantı 19 saylı test tapşırığı**
**C variantı 14 saylı test tapşırığı**
**D variantı 10 saylı test tapşırığı**

Azərbaycan Respublikasının əhalisinin sayı 2010-cu ildə 8997 min nəfər, 2015-ci ildə isə 9592 min nəfər olmuşdur. Bu müddət ərzində əhalinin orta illik artımının eyni olduğunu nəzərə alaraq 2013-cü ildə əhalinin sayının nə qədər olduğunu hesablayın.

A) 9473 min nəfər B) 3572 min nəfər
C) 9354 min nəfər
D) 9712 min nəfər
E) 9116 min nəfər

*Mövzu: Azərbaycan Respublikasının əhalisi*
*Sinif:* 8
*İzah:* Əvvəlcə orta illik artımı hesablayaq:
9592000-8997000=595000 nəfər
2015-2010= 5 il
595000:5=119000 nəfər
Sonra isə 2013-cü ildəki əhalinin sayını hesablayaq:
2013-2010=3 il
119000x3=357000
8997000+357000=9354 000 nəfər
*Doğru cavab:* 9354 min nəfər

**A variantı 23 saylı test tapşırığı**
**B variantı 23 saylı test tapşırığı**
**C variantı 23 saylı test tapşırığı**
**D variantı 25 saylı test tapşırığı**

Cədvələ əsasən doğru sıraları müəyyən edin.

I Batabat
II Maralgöl
III Candargöl
IV Acınohur
V Sarısu
VI Böyük Alagöl

| | | |
|---|---|---|
| 1 | I və VI | Ətrafında dağ-çəmən landşaftı geniş sahə tutur |
| 2 | I və II | Axarlı və şirinsuludur |
| 3 | IV və V | Okean səviyyəsindən aşağıda yerləşir |
| 4 | IV və VI | Vulkanik mənşəlidir |
| 5 | III və V | Kür-Araz (Mərkəzi Aran) fiziki-coğrafi rayonunda yerləşir |
| 6 | III və IV | Tektonik çökmə zonasında yerləşir |

*Mövzu: Azərbaycanın daxili suları*
*Sinif:* 7, 10
*İzah:* Ətrafında dağ-çəmən landşaftı yayılan göllər Batabat və Böyük Alagöldür. Batabat və Maralgöl axarlı və şirinsuludur. Sarısu gölü okean səviyyəsindən aşağıda, Acınohur gölü okean səviyyəsindən yuxarıda yerləşir. Acınohur gölü tektonik mənşəlidir. Sarısu gölü Kür-Araz (Mərkəzi Aran) fiziki-coğrafi rayonunda yerləşir. Candargöl və Acınohur gölü Kür tektonik çökmə zonasında yerləşir.
*Doğru cavab: 1,2,6*

**A variantı 24 saylı test tapşırığı**
**B variantı 26 saylı test tapşırığı**
**C variantı 24 saylı test tapşırığı**
**D variantı 23 saylı test tapşırığı**

İntrazonal landşaftların yayıldığı məntəqələri müəyyən edin.




*Mövzu: Azərbaycanın fiziki-coğrafi rayonlaşdırması*
*Sinif:* 9
*İzah:* Yerli amillərin təsiri şirin yeraltı suların səthə yaxın olması və çay sularının təsiri ilə formalaşan landşaftlar introzonal landşaft adlanır. Bu landşaftlara 1.Samur-Dəvəçi, 3.Lənkəran və 6.Qanıx-Əyriçay fiziki-coğrafi rayonunda rast gəlmək olar.
*Doğru cavab: 1,3,6*

**A variantı 25 saylı test tapşırığı**
**B variantı 24 saylı test tapşırığı**
**C variantı 26 saylı test tapşırığı**
**D variantı 24 saylı test tapşırığı**

40° c. e. və 100° ş. u.-da yerləşən *A* məntəqəsi ilə 40° c. e. və 80° q. u.-da yerləşən *B* məntəqəsi arasındakı ən qısa məsafəni (km-lə) hesablayın. (Nəzərə alın ki, 1°-lik meridian qövsünün uzunluğu 111 km-dir)

*Mövzu: Kartoqrafik təsvirlər*
*Sinif:* 7
*İzah:* Bu məntəqələr arasındakı ən qısa məsafə 40°-lik enlik üzrə deyil, Cənub qütbündən keçməklə meridian üzərində hesablanmalıdır. Əvvəlcə 40°-lik cənub enliyindən 100°-lik şərq uzunluğu meridianı ilə Cənub qütbünə və oradan bu dəfə 80° q.u.meridianı üzrə təkrar 40°-lik cənub enliyinə dərəcə fərqi müəyyən olunur.
90°-40°=50°.
50°+50°=100°. Deməli A və B məntəqələri arasında ən qısa məsafə 100°x111=11 100 km olacaq.
*Doğru cavab:* 11 100 km

**A variantı 26 saylı test tapşırığı**
**B variantı 25 saylı test tapşırığı**
**C variantı 25 saylı test tapşırığı**
**D variantı 26 saylı test tapşırığı**

Dəniz → Boğaz → Dəniz uyğunluğunu müəyyən edin.




*Mövzu: Hidrosfer. Yerin su təbəqəsi*
***Sinif:*** 6
***İzah:*** Mozambik boğazı Madaqaskar adasını Afrika materikindən ayırsa da Qırmızı və Ərəbistan dənizlərini birləşdirmir . Malakka boğazı Andaman və Cənubi Çin dənizlərini birləşdirir.
Kerç boğazı Azov və Qara, Berinq boğazı Çukot və Berinq, Bosfor boğazı Qara və Mərmərə dənizlərini birləşdirir.
***Doğru cavab: 2,3,4***

**A variantı 27 saylı test tapşırığı**
**B variantı 27 saylı test tapşırığı**
**C variantı 27 saylı test tapşırığı**
**D variantı 27 saylı test tapşırığı**
Uyğunluğu müəyyən edin:

| *Dağəmələgəlmə mərhələləri* | *Dağlar* |
|---|---|
| 1. Mezozoy (Kimmeri)<br>2. Alp | a. Verxoyansk<br>b. Karpat<br>c. Altay<br>d. Atlas<br>e. Çerski |

*Mövzu: Litosfer. Yerin planetar və geoloji inkişaf mərhələləri.*
***Sinif:*** 10
***İzah:*** Mezozoy (Kimmeri) dağəmələgəlmə mərhələsinə Verxoyansk və Çerski dağları, Alp dağəmələgəlmə mərhələsinə Karpat və Atlas dağları aiddir. Altay dağları isə Kaledon-Hersin dağəmələgəlmə mərhələsinə aiddir.
***Doğru cavab: 1-a,e; 2-b,d***

***Sizə təqdim olunmuş situasiyanı diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək 28 – 30 saylı tapşırıqları Cavab vərəqində yerinə yetirin. Nəzərə alın ki, hər tapşırıqda alınan nəticə həmin situasiya ilə bağlı növbəti tapşırıqlarda istifadə oluna bilər.***

Üç yarımkürədə və yarımadada yerləşən **A** ölkəsi okeansahili mövqeyə malikdir. Bu ölkənin paytaxtı Bakı şəhəri ilə eyni coğrafi enlikdədir və yerli vaxtı Bakının yerli vaxtından 3 saat 36 dəqiqə geridir. **A** ölkəsi litosfer tavalarının sərhədində yerləşir. Ölkə əlverişli təbii şəraitə malikdir. Yağıntılar əsasən ilin soyuq dövründə düşür. Əhalinin təbii artımı hər 1000 nəfərə 12 nəfərdən azdır. **A** ölkəsi və Argentinanın əhalisinin əsas hissəsi eyni dil qrupuna daxildir. **A** ölkəsinin həmsərhəd olduğu ölkələrdən biri "Böyük yeddilik" (G-7) qrupuna daxildir.

**A variantı 28 saylı test tapşırığı**
**B variantı 28 saylı test tapşırığı**
**C variantı 28 saylı test tapşırığı**
**D variantı 28 saylı test tapşırığı**
**A** ölkəsinin adı, paytaxtı, ölkənin sahillərini yuyan okean və dənizi, paytaxtının yerləşdiyi coğrafi koordinatları hesablayıb (həlli ilə) cədvələ yazın.
*Mövzu:* Dünyanın siyasi xəritəsi. Kartoqrafik təsvirlər. Yer Günəş sistemində
***Sinif:*** 7, 8, 9
***İzah:*** Verilən əlamətlərə uyğun gələn **A** ölkəsi İspaniyadır. Bu ölkə Pireney yarımadasında yerləşir. İspaniyanı Qrinviç meridianı kəsdiyi üçün şimal, şərq və qərb yarımkürəsində yerləşir. Sahillərini Atlantik okeanının tərkib hissəsi olan Aralıq dənizi yuyur. Paytaxtı Madrid şəhəri Bakı ilə eyni enlikdə 40$^o$ şm.e.-də yerləşir. Yerli vaxtı Bakının yerli vaxtından geri olması onun Bakıdan qərbdə olmasını bildirir. İspaniyanın paytaxtı Madrid şəhərinin coğrafi uzunluğunu hesablamaq üçün
3 saat 36 dəqiqə= 216 dəqiqə
1$^o$--- 4 dəqiqə
X$^o$--216 dəqiqə
X= 216:4=54$^o$ coğrafi uzunluq fərqi var.
Bakıdan qərbə getdikcə coğrafi uzunluq azalır.
50$^o$-54$^o$= -4$^o$q.u
Nəticədə 40$^o$şm.e; 4$^o$ q.u.

**A variantı 29 saylı test tapşırığı**
**B variantı 29 saylı test tapşırığı**
**C variantı 29 saylı test tapşırığı**
**D variantı 29 saylı test tapşırığı**
Mətnə əsasən **A** ölkəsinə aid olan xüsusiyyətləri müəyyən edib cədvəldə yazın.
*Mövzu: Litosfer. Yerin planetar və geoloji inkişaf mərhələsi. İqlim və onun təsərrüfata təsiri. Təbii zonalar*
***Sinif:*** 8, 9, 10
***İzah:*** İspaniyanın relyefində cavan dağların yaranması litosfer tavalarının üfüqi hərəkəti ilə bağlıdır. İspaniyanın ərazisi Avrasiya və Afrika litosfer tavalarının konvergent sərhəddinə uyğun gəlir. İspaniyanın ərazisinin əsas hissəsi subtropik iqlim qurşağının Aralıq dəniz tipində yerləşir. Bu iqlim qurşağında formalaşan codyarpaqlı həmişəyaşıl meşə və kolluqlar təbii zonasının yaranma səbəbi yayın isti və quru, qışın isə mülayim və rütubətli keçməsidir. Subtropik iqlim qurşağında yerləşdiyi üçün yayda tropik, qışda isə mülayim hava kütləsinin təsirinə məruz qalır.

**A variantı 30 saylı test tapşırığı**
**B variantı 30 saylı test tapşırığı**
**C variantı 30 saylı test tapşırığı**
**D variantı 30 saylı test tapşırığı**
**A** ölkəsinin əhalisinin əsas hissəsinin aid olduğu dil ailəsi, dil qrupu, təbii artım tipi, demoqrafik keçid mərhələsi və bu ölkənin həmsərhəd olduğu "Böyük yeddilik" (G-7) qrupuna daxil olan ölkəni müəyyən edib cədvəldə yazın.
*Mövzu: Dünya ölkələrinin inkişaf xüsusiyyətləri. Dünya əhalisi.*
***Sinif:*** 8, 9, 11

***İzah:*** İspaniyanın əhalisinin əsas hissəsinin aid olduğu dil ailəsi Hind-Avropa, dil qrupu isə romandır. Əhalisinin təbii artımı hər 1000 nəfərə 12 nəfərdən az olduğu üçün I tipə və demoqrafik keçidin IV mərhələsinə aiddir. İspaniya qurudan Portuqaliya, Fransa, Andorra ilə həmsərhəddir. Bu ölkələrdən yalnız Fransa "Böyük yeddilik" qrupuna (G-7) daxildir.